# YENİ tədris ilinə hədəflərlə

## Təhsil işçilərinin sentyabr konfranslarında ötən tədris ilinin yekunları və qarşıda duran əsas mesajlar müzakirə olunub










*Sentyabrın 4-də Masallı şəhəri Heydər Əliyev Mərkəzində Lənkəran-Astara Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.*

Konfransda elm və təhsil nazirinin müavini Həsən Həsənli, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdiri Elxan Nəcəfov, nazirliyin, eləcə də Astara, Cəlilabad, Lənkəran, Lerik, Masallı və Yardımlı rayonları üzrə təhsil sektorlarının əməkdaşları, həmin rayonlarda çalışan məktəb direktorları, müəllimlər iştirak ediblər.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli çıxış edərək 2023-2024-cü tədris ili üçün ümumi və məktəbəqədər təhsil üzrə prioritet istiqamətlər haqqında məlumat verib, təhsilin idarəedilməsində əlçatanlığın və şəffaflığın təmin edilməsi üçün qarşıda duran vəzifələr barədə qeydlərini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov çıxışında rayon üzrə ümumi və məktəbəqədər təhsil müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması istiqamətində Elm və Təhsil Nazirliyi tərəfindən görülmüş işlərin əhəmiyyətini vurğulayıb.

Daha sonra Lənkəran - Astara Regional Təhsil İdarəsinin müdiri Elxan Nəcəfov hesabatla çıxış edib. Hesabatda region üzrə şagird və müəllim nailiyyətləri, milli qiymətləndirmə və buraxılış imtahanının nəticələri, respublika fənn olimpiadaları, fənn müsabiqələrinə dair reytinq sıralaması, təhsilin təşkili və idarəolunması üzrə statistik məlumatlar, əmək intizamına nəzarət və bu istiqamətdə tətbiq edilmiş intizam tənbehi tədbirləri, təhsil müəssisələrinin istilik təminatı və təmir-tikinti ehtiyacları kimi məsələlər yer alıb.

Tədbirdə təhsil müəssisələri, təhsilverənlər və təhsilalanlarla bağlı 2023-2024-cü tədris ili üzrə əsas mesajlar konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

Konfrans çıxışlarla davam etdirilib.

***

*Sentyabrın 5-də Şirvan-Salyan Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.*

Konfransda Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, nazirliyin İnformasiya və vətəndaşlara xidmət şöbəsinin müdir müavini Səbuhi Rzayev, Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli, Neftçala, Hacıqabul, Salyan, Biləsuvar rayonları və Şirvan şəhəri üzrə təhsil sektorlarının əməkdaşları, həmin rayonlarda çalışan məktəb direktorları, müəllimlər iştirak ediblər.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov çıxış edərək ötən tədris ilində təhsildə əldə olunan nailiyyətlər, sertifikatlaşdırma imtahanlarının əhəmiyyəti, yeni tikilən məktəblər, dərslik təminatı, şagird davranış qaydaları və digər layihələr barədə məlumat verib. Fərzəli Qədirov növbəti tədris ili üçün ümumi və məktəbəqədər təhsil üzrə prioritet istiqamətləri konfrans iştirakçılarının nəzərinə çatdırıb.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxışında rayon üzrə təhsildə əldə olunmuş nailiyyətlərdən məmnunluğunu ifadə edib.

Daha sonra Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli ötən tədris ilinin nəticələrinə dair hesabatla çıxış edib.

Tədbirdə təhsil müəssisələri, təhsilverənlər və təhsilalanlarla bağlı 2023-2024-cü tədris ili üzrə əsas mesajlar müzakirə edilib.

Konfransda digər çıxışlar da dinlənilib.

***

*Sentyabrın 6-da Mərkəzi Aran Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.*

Konfransda Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsinin müdir müavini Orxan Abbasov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Novruzova, Yevlax, Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Zərdab rayonları və Mingəçevir şəhəri üzrə təhsil sektorlarının əməkdaşları, həmin ərazilərdə çalışan məktəb direktorları, müəllimlər iştirak ediblər.

Tədbirdən əvvəl qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra qonaqlar şagirdlərin rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçiriblər.

Konfransda çıxış edən Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsinin müdir müavini Orxan Abbasov ötən tədris ilində təhsil sahəsində əldə olunan nailiyyətlər, 2022-2026-cı illər üzrə təhsil strategiyasının müvafiq istiqamətlər üzrə uğurla icra edilməsi, eyni zamanda, təhsildə innovativ layihələrin tətbiq dairəsinin genişləndirilməsi barədə məlumat verib. Orxan Abbasov növbəti tədris ili üçün prioritet istiqamətləri konfrans iştirakçılarının nəzərinə çatdırıb.

Daha sonra Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov hesabatla çıxış edib. Hesabatda "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlər, region üzrə şagird və müəllim nailiyyətləri, milli qiymətləndirmə və buraxılış imtahanının nəticələri, respublika fənn olimpiadalarının ümumi təhsil müəssisələri üzrə reytinq sıralaması və digər məsələlər yer alıb.

Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Novruzova çıxışında qarşıdan gələn 15 Sentyabr — Bilik Günü münasibətilə konfrans iştirakçılarını təbrik edib.

Sonra 2022-2023-cü tədris ilində səmərəli fəaliyyətinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində göstərdikləri fəal və nümunəvi xidmətlərinə görə bir qrup təhsil işçisi təltif edilib.

Konfrans şagirdlərin ifasında ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

***

*Sentyabrın 6-da Mil-Muğan Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.*

Konfransda elm və təhsil nazirinin müavini Həsən Həsənli, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, Mil-Muğan Regional Təhsil İdarəsinin müdiri Rəşad Musayev, Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları üzrə təhsil sektorlarının əməkdaşları, eləcə də həmin rayonlarda çalışan təhsil işçiləri iştirak ediblər.

Konfransda "Heydər Əliyev İli" çərçivəsində həyata keçirilən tədbirlər, təhsil sahəsində aparılan islahatlar, ümumi təhsil müəssisələrində həyata keçirilən layihələr, müxtəlif müsabiqələr və fənn olimpiadalarında qazanılmış uğurlar, buraxılış imtahanları və ali məktəblərə qəbul nəticələri, müəllimlərin sertifikatlaşdırılması, işə qəbul, direktor təyinatı, təhsil işçilərinin peşəkar inkişafı, nəzarət tədbirləri, təhsil müəssisələrində aparılan təmir-tikinti işləri və digər məsələlərlə bağlı konfrans iştirakçılarına geniş məlumat verilib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modelinin Azərbaycanda çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən etdiyini, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda elm və təhsilin bütün səviyyələri üzrə gələcək inkişaf üçün nəzərdə tutulan hədəf və məqsədlərin də yer aldığını bildirib.

Çıxışının sonunda IV siniflərdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi ilə bağlı aparılmış monitorinqlərdən danışan Həsən Həsənli konfrans iştirakçılarına yeni tədris ilində uğurlar arzulayıb.

Daha sonra Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov çıxış edərək təhsil işçilərinə uğurlar arzu edib.

Hesabatla çıxış edən Mil-Muğan Regional Təhsil İdarəsinin müdiri Rəşad Musayev region üzrə şagird nailiyyətləri, ali məktəblərə qəbul nəticələri, respublika fənn olimpiadaları, fənn müsabiqələrinin region üzrə nəticələri, məktəbdənkənar müəssisələrin qazandığı nailiyyətlər, təhsilin təşkili və idarəolunması üzrə statistik məlumatlar, nəzarət tədbirləri çərçivəsində görülmüş işlər, həmçinin təhsil müəssisələrinin istilik təminatı və təmir-tikinti ehtiyacları kimi məsələlərə toxunub.

***

*Sentyabrın 7-də Qazax-Tovuz Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.*

Konfransda elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, Qazax-Tovuz Regional Təhsil İdarəsinin müdiri Arslan Hacıyev, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayonları üzrə təhsil sektorlarının əməkdaşları, eləcə də həmin rayonlarda çalışan ümumi təhsil müəssisələrinin direktor və pedaqoji heyəti iştirak ediblər.

Konfransda "Heydər Əliyev İli" çərçivəsində həyata keçirilən tədbirlər, ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması, respublika fənn olimpiadaları, təhsil müəssisələrində aparılan təmir-tikinti məsələləri, işə qəbul, direktor təyinatı, təhsil işçilərinin peşəkar inkişafı, nəzarət tədbirləri, eləcə də digər qurumlar, qeyri-hökumət təşkilatları, icra hakimiyyəti orqanları ilə əməkdaşlıq sayəsində görülən işlərlə bağlı iştirakçılara məlumat verilib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışı zamanı 2023-2024-cü tədris ilində ümumi və məktəbəqədər təhsil üzrə prioritet istiqamətlər haqqında məlumat verib, təhsilin idarəedilməsində əlçatanlıq və şəffaflığın təmin olunması üçün qarşıda duran vəzifələr barədə qeydlərini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev Elm və Təhsil Nazirliyi tərəfindən görülən işlərin əhəmiyyətini vurğulayıb, təhsil işçilərini qarşıdan gələn yeni tədris ili münasibətilə təbrik edib.

Daha sonra Qazax-Tovuz Regional Təhsil İdarəsinin müdiri Arslan Hacıyev hesabatla çıxış edib.

Sentyabr konfransında pedaqoji sahədə səmərəli fəaliyyətlərinə görə 8 təhsil işçisinə fəxri fərman verilib, 2 məktəb isə təşəkkürnamə ilə təltif olunub.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.